Maliyyə Monitorinqi Xidməti tərəfindən 2022-ci il ərzində narkotik vasitələrin və psixotrop maddələrin onlayn ticarəti ilə əlaqəli banklardan ümumilikdə 4 hesabat (bunlardan 3-nün əlaqəli olduğu müəyyən edilib) daxil olmuşdur. Müvafiq hesabatların təhlilinin nəticələri əsasında narkotik vasitələrin onlayn satışını təşkil edən mütəşəkkil dəstələr barədə Azərbaycan Respublikasının Baş Prokurorluğuna 2, Daxili İşlər Nazirliyinə isə 1 məlumat təqdim edilmişdir.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi barədə şəhər və rayonlar üzrə ayrı-ayrılıqda əldə olunan statistik məlumatlara dair interaktiv xəritənin maddi-texniki bazası gücləndirilmişdir.




2022-ci il ərzində hüquq mühafizə orqanları və Səhiyyə Nazirliyi tərəfindən təqdim olunmuş məlumatlar əsasında şəhər və rayonlar üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı qeydə alınan cinayət faktları, həmin faktlar üzrə qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələr, narkotiklərlə bağlı məsuliyyətə cəlb edilən şəxslər, narkotik istifadəçiləri və 1000 nəfərə düşən narkomanların sayı barədə;

| Şəhər və rayonlar | Cinayət faktları | Narkotik vasitələr və psixotrop maddələr | Cinayət məsuliyyətinə cəlb olunanlar | Narkotik istifadəçiləri | 1000 nəfərə düşən narkoman-ların sayı |
|---|---|---|---|---|---|
| Lənkəran | 379 fakt | 102 kq 398,4 qr | 354 nəfər | 3837 nəfər | 16 nəfər |
| Şirvan | 331 fakt | 15 kq 991,6 qr | 286 nəfər | 1067 nəfər | 12 nəfər |
| Salyan | 171 fakt | 102 kq 043,5 qr | 151 nəfər | 1335 nəfər | 9 nəfər |
| Sumqayıt | 599 fakt | 53 kq 180,9 qr | 474 nəfər | 3343 nəfər | 8 nəfər |
| Astara | 142 fakt | 297 kq 639 qr | 137 nəfər | 550 nəfər | 5 nəfər |
| Yevlax | 169 fakt | 141 kq 106,6 qr | 146 nəfər | 651 nəfər | 5 nəfər |
| Abşeron | 387 fakt | 182 kq 751,1 qr | 336 nəfər | 846 nəfər | 4 nəfər |
| Biləsuvar | 146 fakt | 217 kq 487,1 qr | 146 nəfər | 342 nəfər | 3 nəfər |
| Gəncə | 301 fakt | 72 kq 810,3 qr | 239 nəfər | 1178 nəfər | 3 nəfər |
| Cəlilabad | 207 fakt | 121 kq 630,4 qr | 206 nəfər | 939 nəfər | 3 nəfər |
| Cəmi | 2832 fakt | 1 ton 307 kq 038,9 qr | 2475 nəfər | 14088 nəfər | |

| Rayonlar | Cinayət faktları | Narkotik vasitələr və psixotrop maddələr | Cinayət məsuliyyətinə cəlb olunanlar | Narkotik istifadəçiləri | 1000 nəfərə düşən narkoman-ların sayı |
|---|---|---|---|---|---|
| Yasamal | 509 fakt | 297 kq 165,9 qr | 395 nəfər | 1652 nəfər | 9 nəfər |
| Suraxanı | 718 fakt | 129 kq 650,4 qr | 523 nəfər | 952 nəfər | 5 nəfər |
| Nəsimi | 444 fakt | 74 kq 733,1 qr | 314 nəfər | 819 nəfər | 4 nəfər |
| Sabunçu | 769 fakt | 153 kq 904,5 qr | 563 nəfər | 1192 nəfər | 4 nəfər |
| Xəzər | 408 fakt | 57 kq 019,8 qr | 299 nəfər | 792 nəfər | 4 nəfər |
| Pirallahı | 20 fakt | 9 kq 174,9 qr | 31 nəfər | 73 nəfər | 4 nəfər |
| Səbail | 189 fakt | 59 kq 106,9 qr | 139 nəfər | 305 nəfər | 3 nəfər |
| Qaradağ | 201 fakt | 279 kq 144,5 qr | 165 nəfər | 383 nəfər | 3 nəfər |
| Binəqədi | 803 fakt | 166 kq 771,4 qr | 607 nəfər | 794 nəfər | 3 nəfər |
| Xətai | 424 fakt | 182 kq 754,9 qr | 357 nəfər | 740 nəfər | 3 nəfər |
| Nərimanov | 280 fakt | 189 kq 957,8 qr | 222 nəfər | 387 nəfər | 2 nəfər |
| Nizami | 363 fakt | 45 kq 522,4 qr | 274 nəfər | 476 nəfər | 2 nəfər |
| Cəmi | 5128 fakt | 1 ton 644 kq 906,5 qr | 3889 nəfər | 8565 nəfər | |

## 2018-2022-ci illər ərzində hüquq mühafizə orqanları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri

2018-2022-ci illər ərzində Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti tərəfindən ümumilikdə 22 ton 182 kq 041 qr müxtəlif növ narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılmışdır.

## 2018-2022-ci illər ərzində hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr




Son 5 il ərzində müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin 11 ton 454 kq 406 qr-nı heroin (51,6%), 5 ton 842 kq 003 qr-nı marixuana (26,3%), 2 ton 132 kq 093 qr-nı tiryək (9,6%), 305 kq 851 qr-nı həşiş (1,3%), 2 ton 441 kq 893 qr-nı psixotrop maddələr və digərləri (11%), 5 kq 795 qr-nı kokain (0, 02%) təşkil etmişdir.

## 2018-2022-ci illər ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr



Ümumilikdə hesabat dövri ərzində (2018-2022) hüquq mühafizə orqanları tərəfindən 32237 fakt aşkar edilmişdir ki, onlardan 11217-si (34,8%) narkotik vasitələrin satışı, 19004-ü (59%) narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 1596-sı (4,9%) qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 420-si (1,3%) isə digərləri olmuşdur.

## 2018-2022-ci illər ərzində narkotik vasitələrlə bağlı qeydiyyata alınmış cinayət faktları




2018-2022-ci illər ərzində cinayət məsuliyyətinə 25436 nəfər cəlb olunub. Onlardan 591 nəfəri qadın, 401 nəfəri xarici ölkə vətəndaşı olmuşdur.

| İllər | 16-18 yaş | 18-30 yaş | 30 yaşdan yuxarı | Qadınlar | Xarici ölkə vətəndaşları | Cəmi |
|---|---|---|---|---|---|---|
| 2018 | 7 nəfər | 495 nəfər | 2025 nəfər | 43 nəfər | 58 nəfər | 2527 nəfər |
| 2019 | 14 nəfər | 817 nəfər | 2656 nəfər | 98 nəfər | 99 nəfər | 3487 nəfər |
| 2020 | 5 nəfər | 1059 nəfər | 3169 nəfər | 83 nəfər | 75 nəfər | 4233 nəfər |
| 2021 | 11 nəfər | 1595 nəfər | 4906 nəfər | 136 nəfər | 70 nəfər | 6512 nəfər |
| 2022 | 13 nəfər | 2040 nəfər | 6624 nəfər | 231 nəfər | 99 nəfər | 8677 nəfər |
| Cəmi | 50 nəfər | 6006 nəfər | 19380 nəfər | 591 nəfər | 401 nəfər | 25436 nəfər |

## HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə mövcud qanunvericiliyə uyğun olaraq, müsadirə edilmiş külli miqdarda narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını Məhvetmə Komissiyası tərəfindən 2891 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 6 ton 135 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə aidiyyəti təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə yandırma yolu ilə məhv edilmişdir.

### 2018-2022-ci illər ərzində məhkəmə hökmləri əsasında barəsində məhvetmə qərarı qəbul edilmiş narkotik vasitələr və psixotrop maddələr



# DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL



## DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL

Narkotik vasitələrin qanunsuz dövriyyəsi dünyada cinayətkarlığın ən böyük həcmə malik istiqamətlərindən hesab olunur. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və beynəlxalq araşdırma mərkəzlərinin müxtəlif illərdə təqdim etdikləri göstəricilərə görə narkotik vasitələrin dünya miqyasında qanunsuz dövriyyəsinin həcmi il ərzində təqribən 450-500 milyard ABŞ dolları həcmində hesablanır. Həmin göstərici Dünya Bankının son dekada üçün təqdim etdiyi illik ümumdünya ticarət dövriyyəsinin təqribən 2-3%-ni, qlobal Ümumi Daxili Məhsulun isə 0,5-0,6%-ni təşkil edir.

EUROPOL-un bildirdiyi məlumata əsasən Avropada narkotik vasitələrin qanunsuz bazarının illik həcmi ən az 30 milyard ABŞ dolları səviyyəsindədir. Bu isə öz növbəsində, Dünya Bankının Avropa İttifaqına dair son dekada üçün təqdim etdiyi illik ÜDM-in təqribən 0,2-0,3%-ni təşkil edir.

EUROPOL-un cari ilin may ayında yenilənmiş hesabatına əsasən son dövrlərə qədər xüsusilə Avropa regionunda ciddi təhdid təşkil etməyən metamfetamin maddəsinin istifadəsi 2019-cu ilin sonlarından etibarən geniş yayılmışdır. Həmçinin BMTNCİ-nin 2021-ci ilə olan məlumatına əsasən metamfetamin dünyada ən çox istifadə edilən sintetik tərkibli narkotik vasitədir. 2015-2019-cu illər arasında BMTNCİ tərəfindən müyyən edilmiş sintetik tərkibli narkotik vasitə istehsal edən laboratoriyaların 95%-i məhz metamfetaminlə əlaqəlidir.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi tərəfindən illik əsasda hazırlanan Ümumdünya Narkotiklər Hesabatına əsasən tiryək istehsalında ən böyük pay sahibləri ötən ildə də olduğu kimi Əfqanıstan, Meksika və Myanmar kimi ölkələrdir. Təkcə Əfqanıstanın üzərinə 2020-ci ildə dünyada istehsal edilmiş tiryəkin 85%-i düşür. Meksika və Myanmar üçün bu göstərici birlikdə 11% təşkil edir.

BMTNCİ-nin 2022-ci ilin noyabr ayına olan məlumatına istinadən 2022-ci ildə Əfqanıstanda tiryək istehsalı ötən illə müqayisədə 32% artaraq 233.000 hektar sahəni əhatə etmişdir. Həmçinin cari ilin aprel ayında tiryək istehsalına qadağa tətbiq edilməsi ilə əlaqədar qiymətlərin artması nəticəsində istehsalçıların gəlirləri 3 dəfəyə yaxın artmışdır.

BMT tərəfindən monitorinq aparılmış son illər ərzində dünyada kokain istehsalında tiryəkdən fərqli olaraq ciddi artım tempi müşahidə olunmaqdadır. Kokain istehsalı 2019-cu ildə 1784 ton səviyyəsində müəyyən edilmişdir. Dünyada kokain istehsalının ən böyük pay sahibləri Latın Amerikası ölkələri, xüsusilə Kolumbiya olmaqda davam edir. EUROPOL hesabatına görə 15-64 yaş arası Avropa əhalisinin təxminən 5%-i (14 milyon nəfər) ən azı bir dəfə kokaindən istifadə etmişdir.

Kannabis əkilən narkotik vasitələr arasında ən geniş istehsal coğrafiyasına malik olmaqda davam edir. 2021-ci ildə kannabis istehsalı bazarının həcmi 323.9 milyard ABŞ dolları təşkil etmişdir. Bir çox ölkələrdə tibbi məqsədlərlə kannabis istehsalının və istifadəsinin leqallaşdırılması səbəbindən bu həcmin 2030-cu ilə qədər illik 21.4% həcmində artması proqnozlaşdırılır. BMT-yə 150-dən çox ölkə kannabis istehsalı barədə məlumat vermişdir ki, bu da dünya əhalisinin 96%-ni özündə cəmləşdirir.

BMTNCİ hesabatına əsasən 2020-ci il üzrə planetimizdə 15-64 yaş arası 284 milyon insan narkotik vasitədən istifadə etmişdir və bu da həmin yaş arası ümumdünya əhalisinin təqribən 5,5%-ni təşkil edir. Bu rəqəm ötən onillik ərzində narkotik istifadəçilərinin sayında 26% artım deməkdir. Bu artım daha çox planetimizdəki ümumi sakinlərin sayındakı artımla əlaqəli olsa da narkotik

## DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL

istifadəçilərinin ümumdünya əhalisinə faiz nisbətində də artım müşahidə edilmişdir. Həmçinin hesabata görə 11.2 milyon insan inyeksiya ilə narkotik qəbul edir ki, bunların da yarısı hepatit C, 1.4 milyonu isə HİV virusu daşıyıcısıdır. 1.2 milyon nəfər isə hər iki virusu daşıyır. Narkotik vasitələrdən istifadə birbaşa və ya dolayı yolla ildə 11.8 milyon insanın ölümünə səbəb olur.

Məlum olduğu kimi, informasiya texnologiyalarının inkişafı nəticəsində narkotik ticarətinin müəyyən hissəsi "darknet" kimi tanınan internet platformalarının payına düşür. Bu platformalar vasitəsilə son illər ərzində (2017-2021) narkotik vasitələrin qanunsuz dövriyyəsinin dəyəri 400 milyon ABŞ dolları səviyyəsində müəyyən edilmişdir.



# NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.4-cü yarımbəndinin icrası məqsədilə 18 həkim-narkoloq ixtisasartırma kurslarına cəlb olunmuş, 5 nəfər həkim "narkologiya" ixtisası üzrə rezidenturaya daxil olmuş, eyni zamanda narkoloji tibb müəssisələrində kadr çatışmazlığını nəzərə alaraq, müvəqqəti tənzimləmə tədbirlərin görülməsi məqsədilə həkim-psixiatrların həkim-narkoloq vəzifəsinə qəbul olunmasına Səhiyyə Nazirliyi tərəfindən müvafiq icazə verilmiş və hazırda "narkologiya" və "psixiatriya" ixtisaslarının birləşdirilməsi üçün zəruri hazırlıq işlərinə başlanılmışdır.

Bundan əlavə hesabat dövrü ərzində Respublika Narkoloji Mərkəzində yaradılan ambulator reabilitasiya şöbəsində fərdi və qrup şəklində 385 nəfər pasiyentə xidmət göstərilmişdir. Eyni zamanda Gəncə, Mingəçevir şəhərlərində yerləşən narkoloji müəssisələrinin əsaslı təmiri və tikintisi, Sumqayıt və Lənkəran şəhər narkoloji dispanserlərinin genişləndirilməsi, həmçinin Respublika Narkoloji Mərkəzi üçün 50 çarpayılıq müalicə-reabilitasiya korpusunun tikintisi, Lökbatan qəsəbəsində yerləşən tikintisi tamamlanmamış xəstəxana binasının 218 çarpayılıq psixiatriya və 123 çarpayılıq narkoloji mərkəz kimi tikintisinin başa çatdırılması, Ağdam rayonunda isə 50 çarpayılıq rayonlararası narkoloji mərkəzin tikintisi planlaşdırılmışdır.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.5-ci yarımbəndinə əsasən narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi tibb müəssisəsinin fəaliyyətinin təmin edilməsi məqsədilə tikinti layihəsinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun rəsmiləşdirilməsi tamamlanmış, smeta qiymətləndirilməsinə yenidən baxılaraq sözügedən obyektin tikintisinə başlanılması baxımından 2023-cü ilin dövlət investisiya proqramında ilkin mərhələdə 5 000 000 (beş milyon) manat vəsaitin ayrılması məsələsinə baxılması üçün Daxili İşlər Nazirliyinin 18 noyabr 2022-ci il tarixli 001-73485-1222 nömrəli məktubu ilə İqtisadiyyat Nazirliyinə müraciət ünvanlanmışdır.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.15-ci yarımbəndinə müvafiq olaraq, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə dərəcəsinin qiymətləndirilməsinin aparılması və təhlili" adlı analitik hesabat hazırlanaraq çap edilmiş və 2022-ci il 6 iyun tarixdə təqdimatı keçirilmişdir.



Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.13-cü yarımbəndinə uyğun olaraq, Ədliyyə Nazirliyi Məhkəmə ekspertizası mərkəzi tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorları üzrə ekspertizaların təyini, aparılması və ekspert rəylərinin qiymətləndirilməsi ilə bağlı məhkəmə və hüquq mühafizə orqanlarına 25 metodik məsləhət verilmiş, habelə cinayətin baş verməsinə səbəb olan şəraiti və halları aşkar etmək, onların qarşısının alınması üçün ekspertlərin xüsusi biliyi çərçivəsində 4 profilaktik tövsiyə göndərilmişdir.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 91722 nəfər istiqamətləndirilmişdir.Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 3321 nəfərindən 2309-nun istifadəçi olması müəyyən edilmiş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilmişdir. Hesabat dövründə 6123 nəfər stasionar müalicədə olmuşdur. Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə 1061 xəstə müalicə alır.

## 2022-ci il ərzində DİN tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün RNM-nə istiqamətləndirilmiş şəxslər



# NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məlumatına əsasən 2022-ci il 31 dekabr tarixinə respublika üzrə narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayı 35097 nəfər təşkil etmişdir. Həmin şəxslərdən 28648 nəfəri dispanser, 6449 nəfəri profilaktik qeydiyyatında olanlardır. Onlardan 572 nəfəri qadındır. 24628 nəfər opioid qrupuna aid narkotik istifadəçiləri, 10469 nəfər kannabinoid qrupuna aid narkotik istifadəçiləridir. 2022-ci ildə müvafiq diaqnozla 3689 nəfər qeydiyyata götürülmüş, 3194 nəfər isə qeydiyyatdan çıxarılmışdır.

| Məlumatlar | Ümumi say | Onlardan dispanser qeydiyyatında olanlar | Onlardan profilaktik qeydiyyatında olanlar | Anonimlər |
|---|---|---|---|---|
| Narkomanların ümumi sayı | 35097 | 28648 | 6449 | 500 |
| Qadınların ümumi sayı | 572 | 432 | 140 | - |
| Tosikomanların sayı | 1156 | 884 | 272 | - |
| Eyni zamanda bir neçə narkotik maddə qəbul edənlərin sayı | 6350 | 5859 | - | - |
| Qeydiyyata götürülənlərin sayı | 3689 | 3022 | 667 | - |
| Qeydiyyatdan çıxarılanların sayı | 3194 | 1480 | 1714 | - |

## Respublika Narkoloji Mərkəzində qeydiyyatda olan narkomanlar




## Yaş qrupları üzrə



**Qeydiyyatda olan narkotik istifadəçilərin yaş qrupları**

| Yaş qrupları | Ümumi say | Onlardan dispanser qeydiyyatında olan | Onlardan profilaktik qeydiyyatında olan |
|---|---|---|---|
| 15-17 yaş | 11 | 5 | 6 |
| 18-24 yaş | 2192 | 1725 | 467 |
| 25-29 yaş | 5736 | 4660 | 1076 |
| 30-34 yaş | 6099 | 4910 | 1189 |
| 35-39 yaş | 5961 | 4916 | 1045 |
| 40-44 yaş | 4973 | 4070 | 903 |
| 45-49 yaş | 4196 | 3441 | 755 |
| 50-54 yaş | 3199 | 2627 | 572 |
| 55-59 yaş | 1693 | 1406 | 287 |
| 60-64 yaş | 764 | 638 | 126 |
| 65 yaş və yuxarı | 273 | 250 | 23 |

**Qeydiyyatda olan narkotik istifadəçilərinin sayı və onların qəbul etdiyi narkotik vasitələrin növü**

| | Şəhər və rayonlar | Qeydiyyatda olan narkotik istifadəçiləri | Opioid qrupuna aid narkotik istifadəçiləri | Kannabinoid qrupuna aid narkotik istifadəçiləri |
|---|---|---|---|---|
| 1 | Bakı şəhəri | 8565 | 7318 | 1247 |
| 2 | Lənkəran şəhəri | 3837 | 3349 | 488 |
| 3 | Sumqayıt şəhəri | 3343 | 2576 | 767 |
| 4 | Salyan rayonu | 1335 | 900 | 435 |
| 5 | Gəncə şəhəri | 1178 | 715 | 463 |
| 6 | Şirvan şəhəri | 1067 | 672 | 395 |
| 7 | Cəlilabad rayonu | 939 | 773 | 166 |
| 8 | Abşeron rayonu | 846 | 584 | 262 |
| 9 | Sabirabad rayonu | 726 | 258 | 468 |
| 10 | Digər şəhər və rayonlar | 13261 | 7483 | 5778 |
| | Cəmi | 35097 | 24628 | 10469 |

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə tibbi ekspertiza və patoloji anatomiya birliyi publik hüquqi şəxsinin verdiyi rəsmi məlumata əsasən narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlərin sayı 2016-cı il üzrə 39 nəfər, 2017-ci il üzrə 58 nəfər, 2018-ci il üzrə 90 nəfər, 2019-cu il üzrə 126 nəfər, 2020-ci il üzrə 160 nəfər, 2021-ci il üzrə 258 nəfər, 2022-ci il üzrə 249 nəfər təşkil etmişdir.

Ümumilikdə son 7 il (2016-2022) ərzində narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlərin sayı 980 nəfər olmuşdur.




**2012-2022-ci illər ərzində Respublika Narkoloji Mərkəzində qeydiyyatda olan narkotik istifadəçiləri**



2022-ci ildə Azərbaycanda 766 nəfər İnsan immunçatışmazlığı virusuna (İİV) yoluxmuşdur. Bütövlükdə 1987-ci ildən 2022-ci il dekabr ayının sonunadək Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzində İİV diaqnozu təsdiq olunmuş 10136 nəfər qeydiyyata götürülmüşdür (9806-sı Azərbaycan vətəndaşı, 330-u əcnəbi). İİV-ə yoluxanların 7223-ü kişi, 2913-ü qadındır. Onlardan 3558-də İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində baş vermişdir. Həmin kateqoriyadan olan şəxslərin 2501 nəfəri hazırda dispanser qeydiyyatındadır.

Ötən il ərzində antiretrovirus terapiyasına (ART) cəlb olunan 808 pasiyentdən 100 nəfəri inyeksion narkotik istifadəçisi olmuşdur. 2022-ci ilin 31 dekabr tarixinə isə ART-yə cəlb olunmuş İİV-li xəstələrin ümumi sayı 7886 nəfər təşkil etmişdir ki, onların da 2469 nəfəri inyeksion narkotik istifadəçisidir.

## 2022-ci il ərzində Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi



# 1987-31.12.2022-ci il tarixədək Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi




**2022-ci ilin dekabr ayının sonuna Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi:**

| YOLUXMA YOLU | Cəmi İİV-ə yoluxanlar | | Onlardan Azərbaycan vətəndaşları | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Cəmi | | | | | |
| | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınlar | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınlar |
| Anadan uşağa ötürülməklə | 12 | 11 | | | 11 | 10 | | |
| Heteroseksual kontakt nəticəsində | 592 | 223 | 491 | 178 | 580 | 219 | 483 | 175 |
| Homoseksual kontakt nəticəsində | 80 | | 77 | | 78 | | 75 | |
| Yoluxma yolu naməlum | 12 | 5 | 4 | 2 | 11 | 4 | 4 | 2 |
| İnyeksiyon narkotik istifadəsi nəticəsində | 70 | 3 | 57 | 3 | 69 | 3 | 56 | 3 |
| Cəmi | 766 | 242 | 629 | 183 | 749 | 236 | 618 | 180 |

**Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi (1987-31.12.2022)**

| Yoluxma yolları | | Azərbaycan vətəndaşları | | | | | | Əcnəbilər | | | | | | Cəmi İİV-ə yoluxmuş şəxslər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | |
| | | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % |
| Parenteral yolla | İnyeksion narkotik istifadəsi | 3490 | 35,6 % | 3414 | 34,8 % | 76 | 0,8 % | 68 | 20,6 % | 59 | 17,9 % | 9 | 2,7 % | 3558 | 35,1 % | 3473 | 34,3 % | 85 | 0,8 % |
| | Donor qanı | 1 | 0,0 % | 0 | 0,0 % | 1 | 0,0 % | | 0,0 % | | 0,0 % | | 0,0 % | 1 | 0,0 % | 0 | 0,0 % | 1 | 0,0 % |
| | Cəmi : | 3491 | 35,6 % | 3414 | 34,8 % | 77 | 0,8 % | 68 | 20,6 % | 59 | 17,9 % | 9 | 2,7 % | 3559 | 35,1 % | 3473 | 34,3 % | 86 | 0,8 % |
| Cinsi yolla | Heteroseksual kontakt | 5259 | 53,6 % | 2703 | 27,6 % | 2556 | 26,1 % | 195 | 59,1 % | 118 | 35,8 % | 77 | 23,3 % | 5454 | 53,8 % | 2821 | 27,8 % | 2633 | 26,0 % |
| | Homoseksual kontakt | 440 | 4,5 % | 440 | 4,5 % | | 0,0 % | 13 | 3,9 % | 13 | 3,9 % | | 0,0 % | 453 | 4,5 % | 453 | 4,5 % | | 0,0 % |
| | Cəmi : | 5699 | 58,1 % | 3143 | 32,1 % | 2556 | 26,1 % | 208 | 63,0 % | 131 | 39,7 % | 77 | 23,3 % | 5907 | 58,3 % | 3274 | 32,3 % | 2633 | 26,0 % |
| Anadan uşağa ötürülmə | | 151 | 1,5 % | 70 | 0,7 % | 81 | 0,8 % | 3 | 0,9 % | | 0,0 % | 3 | 0,9 % | 154 | 1,5 % | 70 | 0,7 % | 84 | 0,8 % |
| Naməlum | | 465 | 4,7 % | 360 | 3,7 % | 105 | 1,1 % | 51 | 15,5 % | 46 | 13,9 % | 5 | 1,5 % | 516 | 5,1 % | 406 | 4,0 % | 110 | 1,1 % |
| Cəmi : | | 9806 | 100,0 % | 6987 | 71,3 % | 2819 | 28,7 % | 330 | 100 % | 236 | 71,5 % | 94 | 28,5 % | 10136 | 100,0 % | 7233 | 71,3 % | 2913 | 28,7 % |

**Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yaş qrupu və cinsi mənsubiyyəti üzrə bölünməsi (1987-31.12.2022)**

| YAŞ QRUPU | Azərbaycan vətəndaşları | | | | | | Əcnəbilər | | | | | | Cəmi İİV-ə yoluxmuş şəxslər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | |
| | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % |
| 0–14 | 176 | 1,8% | 80 | 0,8% | 96 | 1,0% | 4 | 1,2% | | | 4 | 1,2% | 180 | 1,8% | 80 | 0,8% | 100 | 1,0% |
| 15–18 | 38 | 0,4% | 14 | 0,1% | 24 | 0,2% | | | | | | | 38 | 0,4% | 14 | 0,1% | 24 | 0,2% |
| 19–24 | 797 | 8,1% | 413 | 4,2% | 384 | 3,9% | 36 | 10,9% | 16 | 4,8% | 20 | 6,1% | 833 | 8,2% | 429 | 4,2% | 404 | 4,0% |
| 25–29 | 1655 | 16,9% | 1133 | 11,6% | 522 | 5,3% | 54 | 16,4% | 37 | 11,2% | 17 | 5,2% | 1709 | 16,9% | 1170 | 11,5% | 539 | 5,3% |
| 30–39 | 3834 | 39,1% | 2880 | 29,4% | 954 | 9,7% | 111 | 33,6% | 74 | 22,4% | 37 | 11,2% | 3945 | 38,9% | 2954 | 29,1% | 991 | 9,8% |
| 40–49 | 2272 | 23,2% | 1766 | 18,0% | 506 | 5,2% | 78 | 23,6% | 70 | 21,2% | 8 | 2,4% | 2350 | 23,2% | 1836 | 18,1% | 514 | 5,1% |
| 50–59 | 787 | 8,0% | 532 | 5,4% | 255 | 2,6% | 34 | 10,3% | 27 | 8,2% | 7 | 2,1% | 821 | 8,1% | 559 | 5,5% | 262 | 2,6% |
| 60 ≤ | 172 | 1,8% | 115 | 1,2% | 57 | 0,6% | 8 | 2,4% | 7 | 2,1% | 1 | 0,3% | 180 | 1,8% | 122 | 1,2% | 58 | 0,6% |
| Naməlum | 75 | 0,8% | 54 | 0,6% | 21 | 0,2% | 5 | 1,5% | 5 | 1,5% | | | 80 | 0,8% | 59 | 0,6% | 21 | 0,2% |
| Cəmi | 9806 | 100,0% | 6987 | 71,3% | 2819 | 28,7% | 330 | 100% | 236 | 71,5% | 94 | 28,5% | 10136 | 100% | 7233 | 71,3% | 2913 | 28,7% |

Ötən il ərzində antiretrovirus terapiyasına (ART) cəlb olunan 662 pasiyentdən 102 nəfəri inyeksion narkotik istifadəçisi olmuşdur. 2021-ci ilin 31 dekabr tarixinə isə ART-yə cəlb olunmuş İİV-li xəstələrin ümumi sayı 7078 nəfər təşkil etmişdir ki, onların da 2368 nəfəri inyeksion narkotik istifadəçisidir. Məhkəmə-Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyində narkotik vasitələrin və psixotrop maddələrin təyini məqsədilə 3492 tədqiqat aparılmışdır. Həmin tədqiqatlar zamanı 186 halda biomateriallarda tiryək alkaloidləri, 92 halda heroin, 10 halda kodein, 117 halda kannaboidlər, 143 halda amfetamin, 117 halda metamfetamin, 29 halda metadon, 9 halda tramadol, 4 halda 1,4-benzodiazepin törəməsi, 10 halda barbitur turşusu törəməsi, 5 halda fenotiazin (aminazin) törəməsi, 2 halda amitriptilin olmaqla, ümumilikdə 724 halda narkotik vasitələr və psixotrop maddələr aşkarlanmışdır.

| | |
|---|---|
| Tiryək alkaloidləri | 186 halda |
| Heroin | 92 halda |
| Kodein | 10 halda |
| Kannaboidlər | 117 halda |
| Amfetamin | 143 halda |
| Metamfetamin | 117 halda |
| Metadon | 29 halda |
| Tramadol | 9 halda |
| 1,4-benzodiazepin törəməsi | 4 halda |
| Barbitur turşusu törəməsi | 10 halda |
| Fenotiazin (aminazin) törəməsi | 5 halda |
| Amitriptilin | 2 halda |
| Ümumilikdə aşkarlanmış narkotik vasitələr və psixotrop maddələr | 724 halda |